

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 228 (23.870)

*8 dekabr 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, ölkəmizin Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiyi vurğulanıb. Prezident İlham Əliyevin Həştərxana səfərləri məmnunluqla xatırlanıb və bu səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi xüsusi qeyd edilib. Görüş zamanı açılışı olacaq Həştərxan İşgüzar Mərkəzinin əhəmiyyəti qeyd olunub, Bakı ilə Həştərxan arasında birbaşa müntəzəm hava əlaqəsinin yaradılmasının əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulanıb. Söhbət zamanı ölkəmizin Rusiya Federasiyasının Həştərxan vilayəti ilə əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilib. Sonda Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

***

Prezident İlham Əliyev həmin gün "TOTAL Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul edib.

## Müvafiq ixtisasların hamiliyə verilməsi ilə əlaqədar tədbirlərin keçirilməsi diqqət mərkəzindədir



*Heydər Əliyev Muzeyində hamiliklə bağlı Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələrinə "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" mövzusunda açıq dərs keçilmişdir.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbiri nazirliyin şöbə müdiri Gülbuta Babayeva giriş sözü ilə açmış, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxış etmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 1999-cu il 18 fevral tarixli Sərəncamı əsasında yaradılan Heydər Əliyev Muzeyi 10 may 1999-cu ildən fəaliyyət göstərir. Heydər Əliyev Muzeyi Azərbaycanda ümummilli liderimizin sağlığında – 1999-cu ildə yaradılan ilk muzeydir. Muzeyin ilk ziyarətçisi də ulu öndər Heydər Əliyev olmuş, dahi şəxsiyyət muzeyin fəaliyyəti ilə bağlı tapşırıq və tövsiyələrini vermişdir.

Vurğulanmışdır ki, qədim Naxçıvan yüzillərboyu Azərbaycan dövlətçilik ənənələrinin yaşadıldığı dayaq mərkəzi, milli birliyin, həmrəyliyin dəyişməz ünvanı kimi tarixdə öz yerini almışdır. 1990-1993-cü illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin xilaskarlıq missiyasını, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesini məhz Naxçıvandan başlaması da, bu mənada, taleyin hökmü idi.

Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmiş, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir.

Bu gün ölkəmizin və onun Naxçıvan Muxtar Respublikasının inkişafı, tərəqqisi, əldə olunan mövcud sabitlik və yüksək rifah ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Bu yol xalqımızı dünən və bu gün olduğu kimi, gələcəkdə də daha xoşbəxt günlərə qovuşduracaqdır.

Sonda tələbələr muzeyin ekspozisiyası ilə tanış olmuşlar.

* * *



Naxçıvan Dövlət Universitetinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilmiş Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbələri dekabrın 7-də prokurorluqda olublar. Onlar əvvəlcə prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumat alıb, buradakı kitabxana ilə tanış olublar. Həmçinin tələbələrə prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi haqqında məlumat verilib, hadisə yerinin müayinəsi qaydaları əyani vasitələrlə izah olunub.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb.

Bildirilib ki, sərəncamlarda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunan tədbirlər planına əsasən Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması həyata keçirilir. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və bu tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Pərviz Zülfüqarov, Anar Məmmədov və Turqay Həşimlinin çıxışları dinlənilib. Çıxışlarda yeni startap layihələri, cinayət təqibindən kənar icraatlar, prokurorluq orqanlarının cəmiyyətdəki rolundan danışılıb, suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Naxçıvan Dövlət Universitetində olub

*Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener-Trexo Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.*



Universitetin Diplomatiya kabinəsində keçirilən ikitərəfli görüşdə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qonağı salamlayaraq universitetin zəngin maddi-texniki bazası, tərəfdaş olduğu ölkələrlə apardığı tələbə-müəllim mübadiləsi haqqında məlumat verib, sürətlə modernləşən ali təhsil ocağının beynəlxalq əməkdaşlıq üzrə prioritetlərini diqqətə çatdırılıb. Bildirilib ki, universitet müəllimlərinin elmi məqalələr ilə yüksək impaktfaktorlu jurnallara çıxışı təmin edilib. Ali təhsil ocağında yeni qurulacaq texnopark layihəsi çərçivəsində Türkiyə universitetləri ilə qarşılıqlı əlaqələr haqqında qonağa ətraflı məlumat verilib.

Qeyd edilib ki, 1998-1999-cu tədris ilindən etibarən İngilis və Fransız dili ixtisasları, hazırda isə Xarici dillər fakültəsində 6 xarici dil üzrə ixtisaslar fəaliyyət göstərir. Bildirilib ki, tələbələrə ingilis dili ədəbiyyatı, tarixi, mədəniyyəti, incəsənəti ilə bağlı dərslər də keçilir.

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında yaranmış elmi-mədəni sahələrdə münasibətlərin möhkəmlənməsi və inkişafında British Councilin xüsusi rolunun olduğunu qeyd edən Fransis Qardener-Trexo yeni vəzifəyə təyin olunandan sonra muxtar respublikaya səfər etdiyindən məmnun olduğunu bildirib. Vurğulanıb ki, müəllimlərin təkmilləşdirilməsi üzrə British Council tərəfindən həyata keçirilən layihələr Azərbaycanda peşəkarlığı və səriştəliliyi ilə fərqlənir və müasir təlim texnologiyalarına, fəal, interaktiv təlim metodlarına yiyələnmiş ingilis dili müəllimlərinin formalaşmasına zəmin yaradır. İkitərəfli görüşdə təhsil sahəsində əlaqələrin inkişafı üçün gələcək perspektivlər müzakirə olunub.

Sonra ali təhsil ocağının Xarici dillər fakültəsində olan qonaq burada fəaliyyət göstərən İngilis dili və Sinxron tərcümə mərkəzlərinin fəaliyyəti ilə tanış olub. Linqafon və Xarici ölkələr ədəbiyyatı kabinələrində olub, tələbələrin dərs prosesini izləyib. Tələbələrin dərsdənkənar təşkil etdikləri diskussiya klubunda iştirak edən Fransis Qardener-Trexo onların intellektual səviyyələrindən razılığını ifadə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Muxtar respublikada dekabr ayı üzrə pensiyaların maliyyələşdirilməsi yekunlaşmışdır

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən dekabr ayında pensiyaçılara bütün növ əmək pensiyalarının ödənilməsini qrafikdən əvvəl başa çatdırmışdır. Pensiyaçılar pensiyalarını plastik bankomat kartları və istəklərinə əsasən yaşadıqları kəndlərdə yerləşən poçt bölmələri vasitəsilə əldə edə bilərlər. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına, yaxud poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər isə davam etdirilir.

Qeyd edək ki, hazırda tətbiq olunan pensiya sistemi fərdi uçot əsasında sosial sığorta prinsiplərinə uyğun olaraq fəaliyyət göstərir. Fərdi uçotun tətbiqi ilə bütün işləyən vətəndaşları əhatə edən sığorta-pensiya sisteminin formalaşdırılmasına nail olunmuşdur. Əhaliyə göstərilən xidmətlərin təqdim edilmə müddətinin azaldılması məqsədilə müxtəlif layihələr tətbiq edilmişdir ki, nəticədə, sığortaolunanların fərdi hesabları üzrə ödənilmiş sığorta haqları barədə məlumat bazasının yaradılması, bütün mövcud proseslərin, yəni həm məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi və fərdi uçotunun qurulması, həm pensiyaların məbləğinin hesablanması, həm də onların ödənişi və ödənişinə nəzarətin avtomatlaşdırılması tam təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu pensiya və müavinətlərin hər ay vaxtından əvvəl ödənilməsi və pensiyaçıların rahat şəkildə pensiyalarını alması üçün müvafiq işləri bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Müstəqillik illərində inkişafın Naxçıvan modeli Vətənə sədaqətin təntənəsidir

***Bəşər sivilizasiyasının mədəniyyət ocağı, beşminillik tarixin ərməğanı, qütblərin və qitələrin qovuşduğu əsrarəngiz məkan olan Azərbaycanın göz bəbəyidir Naxçıvan. Füsunkar təbiəti, münbit torpağı, milli-mənəvi dəyərləri, ləziz mətbəx nemətləri, təbiət gözəllikləri ilə bir cənnətməkandır Naxçıvan. Dədə Qorqud hikməti, Əcəmi Naxçıvani mədəniyyəti, Kalbalı xan uzaqgörənliyi, Cəlil Məmmədquluzadə ucalığı, Hüseyn Cavid başəriliyi, Məmməd Səid Ordubadi mütəfəkkirliyi, Bəhruz Kəngərli ideyası, Yusif Məmmədəliyev elmi, Cəmşid Naxçıvanski igidliyi, ümummilli lider Heydər Əliyev dühasının hər daşına, qayasına hopduğu bu məmləkətin keçdiyi mübarizə yolunun şanlı tariximizin səhifələrində özünəməxsus yeri var. Çünki bu torpağın qazandığı inkişaf və tərəqqiyə, o cümlədən aydın sabahlara qovuşması heç də asan olmamışdır. Ancaq qürurla deyə bilərik ki, sözügedən çətinliklərin məngənəsindən üzüağ qurtaran muxtar respublikamız bu gün ümummilli liderimiz Heydər Əliyevin böyük amallara hesablanmış ideyalarına qətiyyətlə sahib çıxaraq onu yaşadıb inkişaf və tərəqqi dövrünü qazanmışdır.***



### *Müstəqillik yolunda atılan kövrək addımlar*

Naxçıvanımızın keçdiyi tarixi inkişaf yoluna nəzər saldıqda bunun ən bariz nümunəsini onun taleyinə həkk olunan hadisələrin timsalında görürük. Belə ki, hələ XX əsrin ilk illərindən etibarən tarixin bütün dövrlərində xalqımıza qarşı təcavüzkar siyasət yeritmiş erməni daşnaklarının heç bir ağıla və məntiqə sığmayan hiylələri, saxta torpaq iddiaları bu diyarı, o cümlədən də ötən əsrin əvvəllərində xalqımızı çətin günlərin sınağına çəkməkdəydi. Heç bir ümidi və pənahı olmayan bir dövlət və millət üçün baş verən bu hadisələr isə onların nəinki sabaha, bəlkə də, gələcək yüz ilə belə olan ümidlərini puç etmişdi. Baş verən proseslərin cərəyan etdiyi bir zamanda dövlətçilik ənənələrimizin və ərazi bütövlüyümüzün qorunması üçün atılan ən uğurlu və yekdil addımların başında isə 1918-ci ildə yaradılan və paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Respublikası durur. Tarixi mənbələrimizdə də qeyd edildiyi kimi, ərazisində Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Eçmiədzin qəzasının bir hissəsi, İrəvan qəzasının Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar və Mehri bölgələri daxil olan, sahəsi 8,7 min kvadratkilometr, əhalisi bir milyondan artıq olan bu respublika özündən sonra Moskva, Qars müqavilələri kimi taleyüklü sənədlərin imzalanmasına zəmin yaradaraq yurdumuzu parçalanmaq, məhv olmaq təhlükəsindən xilas etmiş və bugünkü müstəqilliyimizin ilk carçılarından birinə çevirmişdir. Sözügedən hadisələrin ardınca 1924-cü ilin 9 fevralında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması və Naxçıvan şəhəri kimi elm-irfan ocağının respublikanın mərkəzi seçilməsi o dövrlərdə gələcək üçün atılan uğurlu addımların ən gözəl təminatçısı idi. Xalqımızın, dövlətimizin belə çətin və mürəkkəb bir şəraitdə etiraz səsini ucaldaraq bu cür nailiyyətin əldə edilməsini isə gələcəkdə ulu öndər Heydər Əliyev yüksək qiymətləndirəcəkdi: ***“Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir”.***

### *Qurtuluş yolu*

Yuxarıda qeyd etdiyimiz tarixi hadisələr, o cümlədən XX əsrin birinci yarısında baş verən ictimai-siyasi proseslər haqqında çox danışmaq olar. Bu mənada, bir məqamı diqqətə çatdırmalıyıq ki, həmin dövrlərdə müstəqillik ideyalarının işığında atılan addımların hər biri xalqımızın azadlıq yanğısının daha da artmasına, dövrün haqsızlıqlarına, ədalətsizliklərinə qarşı çıxmasına və gələcəkdə həqiqi bir lider ətrafında toplanıb əsl vətənpərvərlik nümayiş etdirməsinə zəmin yaratmışdı. XX əsrdə bitmək bilməyən mürəkkəb siyasi proseslər, erməni daşnaklarının dövlətimizə qarşı apardığı işğalçı münasibətlər, sovet rejiminin xalqımızın başına açdığı acı təlelər, anarxiya, rüşvətxorluq, başlı-başınalıq və ən əsası da həmin illərdəki ölkəyə rəhbərlik edənlərin dövlətimizə qarşı apardığı ögey münasibətlər, sözün əsl mənasında, millətimizin sabaha olan ümidlərini belə, puça çıxarmışdı. Xalqımızın el qədir-qiyməti bilən övladları, təbii ki, bu cür sonu görünməyən, ortalığa işğalçılıqdan, ümidsizlikdən başqa nəticə çıxara bilməyən vəziyyət qarşısında susa bilməzdi. Belə ağır bir şəraitdə isə onların çıxış yolu vahid bir ideya və həqiqi bir lider ətrafında birləşməsi idi.

Bilmək lazımdır ki, hər bir xalqın, millətin, dövlətin taleyində çətin məqamlar olur. O çətin məqamlar ki ağır vəziyyətə düçar olduğu xalqın sanki bəsirət gözünü açaraq ətrafda, ölkədə baş verən hadisələrə adekvat yanaşmasına, yaxşını pisdən, doğrunu yalandan ayırmasına və ən əsası da xalqın öz liderini seçməsinə şərait yaradır. Bir sözlə, xalqı qəflət yuxusundan oyadır. Necə ki bu saydıqlarımızın sayəsində ötən əsrin 90-cı illərində hakimiyyətdə baş verən qanlı-qadalı proseslərə etiraz səsini ucaldan xalqımız ümid dolu baxışlarını sövqi-təbii olaraq elimizin irsi-milli sərvəti, böyük novator Heydər Əliyevin üzərində cəmləşdirərək gələcəkdəki liderini seçməyə qadir olmuşdu.

### *Solmuş üfüqlərdən aydın şəfəqlərə və ya dünyaya ulu öndər bəyanatı*

Böyük mütəfəkkir, publisist Viktor Hüqo bir zamanlar yazırdı: “Əsl liderin ömrünün bir yarısı vətənə, digər yarısı da xalqına xidmət etməkdən ibarətdir”. Bəli, ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasının bütün sahələrində inkişaf və tərəqqi sürətli şəkildə özünü göstərdi. Ümummilli liderin ozamankı hakimiyyətin yarıtmaz siyasəti ucbatından ögey münasibətə məruz qalmış, unudulmuş və blokada şəraitinə salınmış Naxçıvana, naxçıvanlılara kömək əlini uzatması, ümidləri, azadlıqları sanki quş qanadında ərşə ucalmış köməksiz insanların qəlbində bir inam məşəli alovlandırmışdı. Bu da təsadüfi deyildi. Dahi mütəfəkkiri yurduna sevdirən ən əsas məqam da xalqının, elinin, dövlətinin siyasi maraqlarını hər şeydən üstün tutması, bir sözlə, ömrünü onların rifahına həsr etməsi idi. Bu mənada, xalqımızın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər elə ilk vaxtlardan dövləti düşdüyü ağır siyasi vəziyyətdən çıxarmaq, illərlə Azərbaycanı parçalayıb, sərvətlərini tar-mar edən dövlətləri öz yerinə oturtmaq üçün çıraq işığında qətiyyətlə çalışaraq saysız-hesabsız tarixi müvəffəqiyyətlər əldə etdi. Bu yolda atılan ilk addımlardan biri kimi Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, Naxçıvanın 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda iştirak etməməsi milli istiqlalımıza, azadlığımıza və hürriyyətimizə rövnəq verən addımlardan biri idi. Sözügedən addımlar həm də Azərbaycanın məğlubiyyəti üçün çalışan işğalçı qüvvələrə və dünyaya, sözün əsl mənasında, ulu öndər bəyanatı idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada baş verən ictimai-siyasi proseslərə yaxından tanış olması, baş verən ağır problemlərin aradan qaldırılması üçün səylə çalışması, blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanı regionun qabaqcıl inkişaf obyektlərindən birinə çevirmək üçün çıraq işığında çalışıb, min bir əzab-əziyyətlə inkişafın Naxçıvan modelini yaradaraq xalqımızı zülmət gecələrdən aydın sabahlara aparması dahi şəxsiyyətin Vətənə sədaqətinin təntənəsi idi. Ulu öndərin ölkəmizin, muxtar respublikamızın xilaskarı kimi atdığı məqsədyönlü addımlardan biri də yurdumuzu öz siyasi xəttinə sadiq, Vətən, xalq qədir-qiyməti bilən, dövrün qaynar, ağır şəraitinə baxmayaraq, onu çətinliklərin məngənəsindən qurtara biləcək bir rəhbərə əmanət etməsi idi. Dahi liderin məmləkətimizi böyük inamla etibar etdiyi bu şəxsiyyət 1960-cı il 14 yanvar tarixdə sadə, zəhmətkeş bir ailədə doğulan və tariximizin səhifələrinə müstəqillik illərində inkişafın Naxçıvan modelini yazan cənab Vasif Talıbovdur.

### *Müasirləşən Naxçıvan*

Ümummilli liderimiz Naxçıvana etdiyi ilk səfərində, qısa zaman müddətində, muxtar respublikanın yeni rəhbərinin qətiyyətli addımları ilə diyarımızın bütün sahələrində gedən inkişaf və irəliləyişin şahidi olmuş və onu müsbət qiymətləndirərək demişdir: ***“...Muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, qısa müddətdə Naxçıvanda çox işlər görülübdür... Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır... Əminəm ki, bundan sonra da dayaq olacaqdır”.***

Müstəqillik illərində muxtar respublikamızda ulu öndər dəstxətinə sadiqlik, yaradıb-yaşatmaq amalı və diyarımızın hər bir sahəsində atılan məqsədyönlü addımlar tezliklə Naxçıvanımıza müasirlik simasını qazandırdı. İstənilən davamlı inkişafın təməlində, ilk növbədə, rəhbər-vətəndaş əlaqələrinin üstünlüyünü uzaqgörənliklə dərk edən muxtar respublika rəhbəri tez bir zamanda ümummilli lider tərəfindən əsası qoyulan həmrəylik münasibətlərində siyasi sabitliyi bərqərar etməklə bir çox təhlükələri aradan qaldıraraq xalqının etimadını qazana bildi. Bu ideya isə ideal bir siyasətçinin atdığı ən mütəşəkkil addımların önündə dayanır. Sözügedən uğurun sayəsində yurdumuz regionun ən sabit, təhlükəsiz, əmin-amanlığın hökm sürdüyü bir ünvana çevrildi.

Uzun müddət blokada şəraitində yaşamasına baxmayaraq, diyarımızda mövcud olan çoxsaylı problemlərin həlli, şəhərlərimizin, kəndlərimizin simasında həyata keçirilən müsbət dəyişikliklər muxtar respublikamızın tarixi üçün bir yenilik olmaqla yanaşı, həm də blokadanın, sözün əsl mənasında, inkişaf modeli idi. Günü-gündən gülüstana çevrilən şəhərimizdə yeni-yeni inzibati binaların tikilib əhalinin ixtiyarına verilməsi, yolların əsaslı şəkildə təmir olunması, təlim-tədris obyektlərinin açılması, park-xiyabanlarımızda olan təmizlik adını çəkdiyimiz inkişaf və tərəqqinin, o cümlədən muxtar diyarımızın Qurucu Rəhbərinin parlaq ideyalarının ən gözəl nümunəsidir. Bunun nəticəsidir ki, yurdumuzun hər bir sahəsində gedən inkişaf, müasirləşmə onu nəinki regionun, hətta dünyanın sayılıb-seçilən qabaqcıl məkanları siyahısına daxil edib. Şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmış bu hadisələr, saymaqla bitməyən bu uğurlar mövzumuzun sərlövhəsində də adını qürurla çəkdiyimiz bu şəraitindəki inkişafın gözoxşayan gözəllikləri və xalqımızın el qeyrəti çəkən övladlarının vətənpərvərlik yoludur. O yol ki onu qazanıb bu günlərə, gələcək nəsillərə miras qoymaq üçün uzun illər naxçıvanlıların gənclik illərinin ən gözəl çağlarında, çörək növbələrində, elə çörəklə imtahana çəkərək ümidlərini 90-cı illərin sazağında gözlərində donduran çovğunlu qışı solmayan baharla əvəzləmişdir. O yolun özü ilə birgə yurdumuza gətirdiyi azadlığın, müstəqilliyin, hürriyyətin təməlində çıraq işığında gecəni səhər edənlərin ideyaları, amalları, qurub-yaratmaq cəhdləri dayanmışdır.

Bu gün böyük xoşbəxtliklə muxtar diyarımızın müstəqillik illərində qazandığı uğurlardan, o cümlədən 2018-ci ildə Gənclər paytaxtı seçilməsindən tutmuş, İslam mədəniyyətinin mərkəzi seçilməsinə qədər olan dövrlərdən və son olaraq da Zəngəzur dəhlizi vasitəsilə Turan elinə qaynayıb-qarışmasına qədər olan mərhələlərdən ürəkdolusu danışmaq olar. Lakin məmləkətimizin gözoxşayan gözəllikləri, inkişafı, tərəqqisi və müasirliyi qarşısında sözlər belə, aciz qalır.

*Ariflər deyirlər ki, zaman lövbərsiz gəmi kimidir; dayanmadan irəliləyir. Bu gəminin əbədi sakinləri isə keçmişini unutmayan, bu gününün qiymətini bilən və gələcəyi üçün dayanmadan çalışanlardır. Son 30 ilin qısa təhlili göstərir ki, muxtar respublikamızda ulu öndər siyasətinə sadiqliyin nəticəsində əsl vətənpərvərlik məfkurəsindən doğan parlaq ideyalar qurub-yaradan dahi şəxsiyyətlərin əlində, o cümlədən muxtar respublikamızın inkişaf modelinin memarı olan muxtar respublika rəhbəri sayəsində tariximizin səhifələrinə günümüzün reallıqları kimi yazılır. Elə Ali Məclis Sədrinin də dediyi kimi:* ***“Yol düzgün seçildikdə, milli maraqlara və dövlətçiliyə sədaqət olduqda, insanların qayğısı və ehtiyacları hədəfə alındıqda istənilən möcüzəni yaratmaq olur”.***

**✍ Məcid RƏŞADƏTOĞLU**

***Məqalə “Müstəqillik illərində inkişafın Naxçıvan modeli” adlı tələbələrarası yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

# Kənd təsərrüfatında maarifləndirmə tədbirləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən noyabr ayında da kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar müşavirələr, seminarlar və maarifləndirmə tədbirləri keçirilib.*

Noyabr ayı ərzində nazirliyin mütəxəssisləri tərəfindən Babək rayonunun Cəhri qəsəbəsində, Qaraqala və Yarımca kəndlərində olan meyvə bağlarında zərərvericilərin qışlayan formalarının müşahidələri aparılıb, aşkar edilən zərərvericilərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi qaydaları haqqında torpaq mülkiyyətçilərinə müvafiq tövsiyələr verilib. Yerlərdə taxıl əkininin aparılmasına nəzarət edilib, toxumların standartlara uyğunluğu və onların dərmanlanaraq aqrotexniki qaydalara uyğun əkilməsinin vacibliyi qeyd olunub.“Taxıl toxumlarının dərmanlanması” mövzusunda buklet hazırlanaraq keçirilən görüşlərdə torpaq mülkiyyətçilərinə paylanılıb. Payız əkinlərinin keçirilməsində innovativ kənd təsərrüfatı texnikalarının gücündən səmərəli istifadə qaydaları, texnikalarda yarana biləcək nasazlıqların qısa zamanda aradan qaldırılması haqqında ətraflı söhbətlər aparılıb. Nazirliyə meyvə bağları və üzümlüklərdə zərərverici və xəstəliklərə qarşı mübarizə ilə bağlı müraciət edən 10 vətəndaşa mütəxəssislər tərəfindən müvafiq məsləhətlər verilib.

“Araz” Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin mütəxəssisləri Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşları ilə birlikdə Culfa rayonunun Dizə kəndində “Torpaq nümunələrinin götürülməsi və torpaq kartoqramlarının əhəmiyyəti” adlı seminar-müşavirə keçirib. Müşavirədə Culfa rayonunun Dizə, Gal və Şurud kəndlərinin torpaq kartoqramları kəndlərin inzibati ərazi dairələri üzrə nümayəndələrinə təhvil verilib və torpaq analizlərinin götürülməsi, torpaq kartoqramlarının əhəmiyyəti haqqında fermerlər və torpaq mülkiyyətçiləri məlumatlandırılıb. Şərur rayonunun Zeyvə kəndindən gətirilən 2 torpaq nümunəsi analiz olunaraq nəticələri haqqında arayış aidiyyəti üzrə təqdim olunub. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin tələbələrinə birliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsində təcrübə məşğələləri keçirilib.

Noyabr ayı ərzində Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin laboratoriyasına toxumçuluq təsərrüfatı və fermerlər tərəfindən gətirilən toxumlar analizdən keçirilib, nəticəsi analiz aktı formasında onlara təqdim olunub. İdarəyə 37 ayrı-ayrı ailə təsərrüfatı rəhbərləri, fermerlər tərəfindən müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə gətirilən nümunələrə baxılıb, mübarizə tədbiri olaraq lazımi məsləhət və tövsiyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Babək rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilib.*

## Nəticələr müzakirə edilib



Tədbiri giriş sözü ilə açan Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində rayonumuzda müasir təhsil infrastrukturu yaradılıb, bütün təhsil müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, maddi-texniki bazası gücləndirilib. Təkcə 2021-ci ilin ötən dövründə Göynük kənd tam orta və Araz kənd ümumi orta məktəblərinin infrastrukturu yenilənib. Hazırda Sirab kənd tam orta məktəbində quruculuq işləri aparılır.

Bildirilib ki, muxtar respublikada təhsilə göstərilən hərtərəfli dövlət qayğısı ümumtəhsil məktəblərində şagirdlərin keyfiyyətli təhsil almasına və təhsildə yüksək nailiyyətlərin əldə olunmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, bu gün muxtar respublikada təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsil alması, eləcə də yeni təlim metodlarının tətbiqi üçün hərtərəfli şərait yaradılır. Belə şərait təhsil işçilərini ruhlandırır, onları öz fəaliyyətlərinə daha yaradıcı yanaşmağa sövq edir.

Qeyd olunub ki, ümumtəhsil məktəblərində mövcud imkanlardan yararlanan müəllim və şagirdlər tədris prosesində ən qabaqcıl texnologiyalardan istifadəyə üstünlük verirlər. Bu da şagirdlərin yaxşı təhsil almalarına, istedad və bacarıqlarının aşkar edilməsinə, xüsusilə də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr göstərmələrinə öz töhfəsini verir.

Diqqətə çatdırılıb ki, Babək Rayon Təhsil Şöbəsinin tabeliyində 34 tam orta, 2 ümumi orta məktəb, 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ümumtəhsil məktəblərində 652 sinifdə 9630 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 1291 müəllim məşğul olur. Məktəblərdə 833 kompüter və 103 elektron lövhə quraşdırılıb. Məktəblərin kitabxanaları 90 mindən çox latın qrafikalı bədii ədəbiyyat və 120 minə yaxın dərsliklə təmin olunub, bütün təhsil müəssisələrində idman zalları, açıq idman qurğuları, istilik sistemi quraşdırılıb, 4 məktəbdə STEAM kabinəsi təşkil edilib. Hazırda 14 məktəbdə STEAM kabinəsi yaradılır. Müəllimlərin işə qəbulu üzrə keçirilən müsabiqələrdə son 3 ildə 95 gənc kadr müəllim kimi fəaliyyətə başlayıb. 22 gənc kadr isə müxtəlif vəzifələrə təyin olunub.

Bildirilib ki, Babək Rayon Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 505 məzunundan 483-ü və ya məzunların 95,6 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak edib, onlardan 288-i qəbul olub. 44 məzun imtahanlarda 500-700 bal arası nəticə göstərib. Təhsildə qazandıqları nailiyyətlərə görə məzunlardan 1-i “Qızıl”, 2-si “Gümüş” nişana, 7-si isə fərqlənmə attestatına layiq görülüb.

Sonra rayon Təhsil Şöbəsinin əhatə etdiyi məktəblərin dördillik fəaliyyəti ayrı-ayrılıqda müzakirə edilib. Bildirilib ki, rayonun 3 məktəbinin məzunlarının 75 faizdən çoxu ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Təhsil naziri nəticəsi yaxşı olan məktəblərin kollektivlərinə təşəkkür edib, nəticəsi zəif olan məktəb direktorlarına fəaliyyətin gücləndirilməsi ilə bağlı tapşırıqlar verib.

Sonda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən ötən tədris ilində keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən 8 məktəbə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## *“Beynəlxalq həftə”* layihəsi həyata keçirilir

*“Naxçıvan” Universitetində təhsil alan əcnəbi tələbələrə ölkəmizi, onun tarixini, mədəniyyətini, incəsənətini tanıtmaq, eləcə də universitetdə tədris edilən xarici dillərin təbliğini aparmaq məqsədilə yeni layihəyə start verilib.*



Layihə çərçivəsində dünən “Türkiyə günü” keçirilib. Tədbirdə qardaş Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu və digər qonaqlar iştirak edib.

Universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verir. Hazırda muxtar respublikamız qardaş ölkə ilə digər sahələrlə yanaşı, elm və təhsil sahəsində də geniş əməkdaşlığa malikdir. Bu gün “Naxçıvan” Universiteti Türkiyənin 30-a yaxın ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq iki istiqamətdə aparılır. “Mövlana” Mübadilə Proqramı çərçivəsində 20-yə yaxın universitetlə əməkdaşlıq edən “Naxçıvan” Universiteti həm tələbə-müəllim mobilliyini, həm də elmi əməkdaşlıq işlərini həyata keçirir. Bununla yanaşı, ali təhsil ocağı Türkiyədə yerləşən EURAS Universitetlər Birliyinin və Türk Dünyası Rəqəmsal Vətəndaşlıq layihəsinin də rəsmi iştirakçılarındandır. Bunun nəticəsində isə universitet təşkil olunan bütün simpoziumlar və sərgilərdə, eləcə də onlayn təlim və seminarlarda iştirak edə bilir. Hazırda universitetdə 50-yə yaxın türkiyəli tələbə təhsil alır.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz hər iki ölkənin ali təhsil müəssisələri arasında qarşılıqlı əlaqələrə toxunaraq birgə layihələrin gələcək perspektivlərindən danışıb.

Sonra tədbir bədii hissə ilə davam etdirilib. Əvvəlcə “Yeddi rəngdə Türkiyə” filminin təqdimatı keçirilib. Layihə çərçivəsində Türkiyədən dəvət olunan “Ahəng Sənət Gənclik və İdman” folklor qrupunun rəqs nümunələri və “Naxçıvan” Universitetində təhsil alan türkiyəli tələbələr tərəfindən səsləndirilən mahnı maraqla qarşılanıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Ali təhsil ocağında ixtisasartırma kursları təşkil olunub

*Naxçıvan Dövlət Universitetində orta məktəb müəllimləri üçün Texnologiya müəllimliyi ixtisası üzrə ixtisasartırma kursları təşkil olunub.*



Bu münasibətlə keçirilən tədbirdə giriş sözü ilə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov tədris üçün yaradılan yüksək şəraitdən, elmdə və təhsildə qazanılan uğurlardan söhbət açıb. Qeyd olunub ki, ali və orta ümumtəhsil məktəbləri ilə birgə belə tədbirlərin keçirilməsi, bilik və təcrübə mübadiləsi, gələcək pedaqoji fəaliyyət prinsipləri baxımından mühüm əhəmiyyət kəsb edir.

Kursun koordinatoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Quliyeva çıxış edərək vurğulayıb ki, kursun keçirilməsində əsas məqsəd orta məktəb müəllimləri ilə universitet arasında əlaqələri genişləndirməkdir. Bildirilib ki, muxtar respublikada bu formada kursların təşkil edilməsi müəllimlərin peşə bacarıqlarının möhkəmlənməsində xüsusi rol oynayır.

Sonra müəllimlər Tikiş texnologiyası, Xalçaçılıq, Toxuculuq, Ağac və metal məmulatlarının hazırlanması texnologiyaları, Kulinariya kabinələri ilə tanış olublar. Beş gün davam edəcək kurslar həmin ixtisasları əhatə edən kabinə və mərkəzlərdə hər gün 2 saat olmaqla müəyyənləşdirilib. Kurslarda 15 müəllim iştirak edir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Təhsil millətin gələcəyidir*

## Cari tədris ili də yeni uğurlarla başa vurulacaq



*Hər il Naxçıvan şəhərindən başlayaraq ən ucqar dağ kəndlərimizdə yeni məktəb binalarının tikintisi və ya yenidən qurulması, tədris müəssisələrinin maddi-texniki bazalarının müasir təhsil avadanlıqları ilə təchizatı günün reallığıdır. Bunu bütün naxçıvanlılar, diyarımıza gələn qonaqlar da görür, blokada şəraitində yaşayan bir məmləkətdə 30 ilə yaxın bir zaman kəsiyində böyük həcmdə belə tədbirlərin həyata keçirilməsindən təəccüblərini gizlədə bilmirlər.*

Bu qayğıdan bol-bol bəhrələnən təhsil müəssisələri doğulub boya-başa çatdığım Şərur rayonunda da çoxdur. İllərdir ki, Naxçıvan şəhərində yaşayıb fəaliyyət göstərsəm də, tez-tez rayona gedir, burada həyata keçirilən yenilənmə tədbirlərini böyük qürur hissi ilə izləyirəm. Yenilənmə həyatın bütün sahələrini əhatə edir, öndə isə təhsil dayanır. Rayon mərkəzindəki 2 nömrəli tam orta məktəb də hərtərəfli dövlət qayğısından bəhrələnən təhsil müəssisələrindən biridir. Qeyd edim ki, bu tədris ocağı muxtar respublikanın müasir məktəbləri sırasına 2017-ci il mart ayının 7-də qoşulub.

Açılış tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Məktəblərdə təhsilli, dünyagörüşlü və peşə sahibi olacaq gənclərin hazırlanması ölkənin etibarlı gələcəyindən xəbər verir. Bu səbəbdən də ölkəmizdə məktəb işinə xüsusi diqqət yetirilir. Yaradılan müasir tədris şəraiti imkan verir ki, ümumtəhsil məktəblərini bitirən hər bir gənc ölkəmizlə yanaşı, həm də istənilən xarici ölkədə ali təhsil ala bilsin. Həmçinin ölkəmizdə qəbul olunmuş Dövlət proqramlarına uyğun olaraq yaxşı oxuyan gənclər seçilərək xarici ölkələrdə ali təhsil almağa göndərilir. Bu gənclər təhsillərini başa vurub qayıtdıqdan sonra ölkəmizə xidmət edirlər. Ona görə də gənclər hərtərəfli hazırlanmalı, dünya təhsil sisteminə inteqrasiya olunmalıdır”.***

Məktəbin 2020-2021-ci tədris ilində qazandığı uğurlar yaradılan şərait müqabilində pedaqoji kollektivin qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində göstərdiyi əzmkarlığın ifadəsi kimi diqqəti çəkir. Cari dərs ilində tədris prosesindəki yeniliklərlə tanış olmaq üçün məktəbə üz tutduq. Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Sevil Hacıyeva bildirdi ki, dördmərtəbəli və 1020 şagird yerlik məktəbdə müasir tədris şəraiti yaradılıb. 5-i elektron lövhəli olmaqla, 50 sinif, 2 müəllimlər, 2 şahmat, tibb otaqları, bufet, idman zalı, açıq idman qurğuları və minifutbol meydançası kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kitabxana müəllim və şagirdlərin ixtiyarına verilib.

Məktəbdə 4 kompüter otağından istifadə edilir, ümumilikdə, 84 kompüter quraşdırılaraq sürətli internetə çıxışı təmin olunub. Yeni texnologiyalar məktəbdə distant tədrisin tətbiqinə və interaktiv dərslərin keçilməsinə imkan verir. Laboratoriyalar ən müasir təcrübə avadanlıqları və əyani vasitələrlə zənginləşdirilib.






Şahmat otağında şagirdlər şahmatın sirlərinə yiyələnirlər. Geniş idman zalında isə gənclərin digər idman növləri ilə məşğul olması üçün şərait vardır. Məktəbin hərbi kabinəsi əyani tədris vasitələrilə təchiz edilib.

Kitabxanada “Oxunması zəruri olan kitablar” adlı guşə yaradılıb. Bu siyahıya daxil edilən kitabların müzakirəsi diqqət mərkəzində saxlanılır.

Məktəbdə 1046 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 119 müəllim məşğul olur. 2020-2021-ci tədris ilinin məzunlarından 26-sı ali, 4-ü isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb. Sevil Hacıyevanın sözlərinə görə, məktəbin müəllimləri yeni tədris üsullarından istifadəyə və dərslərini canlı şəkildə qurmağa səy göstərir, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini diqqətdə saxlayırlar. Yeni dərs ilində istifadəyə verilmiş STEAM kabinəsi müəllim və şagirdlərdə böyük sevinc hissi yaradıb. Təhsil ocağında məktəbdənkənar və sinifdənxaric tədbirlərin təşkilinə xüsusi diqqət yetirilir. Bütün bunlar şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılmasında, onların vətənpərvər vətəndaş kimi formalaşdırılmasında, şagirdlərin dövlətçiliyimizə, milli və mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunmalarında mühüm əhəmiyyət kəsb edir. Müəllimlər dərs məşğələlərində, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə ötən il 44 gün ərzində qazandığımız Qələbənin xalqımızın haqq işi olması, bu Qələbədə şəhidlik zirvəsinə ucalmış igid eloğullarımız haqqında şagirdlərə ətraflı məlumatlar verir, onların məzarları ziyarət edilir, şəhid ailələri və qazilər ilə görüşlər təşkil olunur.

Dahi öndərimiz Heydər Əliyevin hamımız üçün örnək olan həyat və siyasi fəaliyyətinin gələcəyimizin etibar ediləcəyi bugünkü şagirdlərə öyrədilməsi üçün məktəbdə tədbirlər planı hazırlanıb. Plana əsasən keçirilən tədbirlər öz bəhrəsini verir. İnşa, şeir, rəsm müsabiqələri bu baxımdan diqqəti çəkir. Məktəbdə şagirdlərin fiziki hazırlığına ciddi diqqət yetirilir. Bunun üçün də dərsdənkənar məşğələləri xüsusi qeyd etmək lazımdır. Məktəbin şagirdləri rayon və muxtar respublika birinciliklərində uğurlu nəticələr əldə edirlər. Təbii ki, qazanılan uğurlarda müəllimlər başlıca simadırlar. Ona görə də dövlətimiz tərəfindən müəllim əməyinə yüksək qiymət verilir, diaqnostik qiymətləndirmə aparılır, müəllimlər fəxri adlarla təltif olunurlar. Məktəbin müəllimlərindən 1-i Azərbaycan Respublikasının, 4-ü isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülüb.

Azərbaycan Respublikasının Əməkdar müəllimi Əminə Əsgərova da qazanılan uğurları məqsədyönlü dövlət təhsil siyasəti ilə bağladı. Cari tədris ilini daha böyük nailiyyətlərlə başa vurmaq üçün dərs ilinin ilk günlərindən kollektivin öz gücünü səfərbərliyə aldığını bildirdi.

Məktəbin direktoru Sevil Hacıyeva diqqətimizə çatdırdı ki, kollektiv onlara göstərilən etimadı doğruldacaq, bu tədris ilini daha böyük uğurlarla başa vuracaq.

**Leylan MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin Fizikanın tədrisi metodikası və metodologiyası üzrə I kurs magistri***

*Müasir dövrdə bədən tərbiyəsi və idmanın inkişafı hər bir dövlətdə insanların sağlamlığı və mənəvi yüksəlişi ilə yanaşı, milli potensialın maksimum səmərəli reallaşdırılması, cəmiyyətin saflaşması və yetkinləşməsi, genofondun qorunub saxlanması baxımından son dərəcə mühüm vasitə sayılır. İstənilən dövlətdə idmanın inkişafının yüksəlişini bu sahənin inkişafı üçün atılan davamlı, məqsədyönlü addımlar, idmanın müxtəlif sahələri üzrə maddi bazanın genişləndirilməsi, təkmilləşdirilməsi, öz bacarığı ilə idmanın inkişafına təkan verə biləcək peşəkar mütəxəssislərin yetişdirilməsi şərtləndirir. İdman tarixçilərinin bu istiqamətdəki hər bir addımı təqdirəlayiqdir. Bu baxımdan muxtar respublika hüdudlarından kənarda da yaxşı tanınan idmançı-müəllim Valeh Əlixanovun bu yaxınlarda işıq üzü görən "Naxçıvan boks məktəbinin yetirmələri" adlı kitabı əhəmiyyətliliyi ilə seçilir.*

Yeni nəşrlər

## Naxçıvan boks məktəbinin yetirmələri muxtar respublikada aparılan idman siyasətinin uğurları kimi

Yeni nəşrlə tanış olarkən bir daha belə bir qəti qənaətə gəlirsən ki, müstəqillik dövründə bədən tərbiyəsi və idman sahəsində qazandığımız uğurların təməlində dövlətimizin bu sahəyə diqqət və qayğısı, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş idman siyasəti dayanır. Ulu öndər müxtəlif dövrlərdə hakimiyyətdə olduğu vaxtlarda iqtisadiyyatın, maarifin, elmin, Vətəninin hərbi müdafiə qüdrətini inkişaf etdirməklə yanaşı, əhalinin sağlamlığının möhkəmləndirilməsi keşiyində də dayanmış, bədən tərbiyəsi və idmanın kütləvi hal alması, idmançıların böyük miqyaslı yarışlarda yüksək nəticələr əldə etməsi üçün müntəzəm olaraq iş aparmış və idmana hərtərəfli qayğı göstərmişdir.

Azərbaycanın bu gün dünya miqyasında idman dövləti kimi tanıdılmasında isə idmançılarımızın ən böyük himayəçisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tarixi xidmətləri yaşadığımız dövrün parlaq səhifələrini təşkil edir.

Vətənimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında bu gün özünün yüksək inkişaf və tərəqqi dövrünü yaşayır. Azərbaycan tarixində həmişə özünəməxsus yeri və rolu ilə seçilən bu diyar ölkə həyatının bütün sahələrində olduğu kimi, bədən tərbiyəsi və idman hərəkatında da öncüllüyü, inkişaf tempi və miqyası, əhatə dairəsinin genişliyi, kütləviliyi və peşəkarlığı, ənənələrə sadiqliyi və yeniliyə meyilliliyi və digər keyfiyyət və məziyyətləri ilə həmişə diqqəti cəlb etmişdir.



Bütün bunlardan bəhs edən yeni nəşr haqqında danışmağa onun müəllifini tanıtmaqdan başlayaq. Valeh Əlixanov beynəlxalq təcrübəli hakim, SSRİ idman ustası, Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi, Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının müəllim-məşqçisi, Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman kafedrasının baş müəllimi, onlarla gənc naxçıvanlını yetişdirib ölkə idmanına bəxş etmiş, muxtar respublika ümumtəhsil məktəbləri üçün yüzlərlə müəllim-məşqçi kadrların hazırlanmasında xüsusi əməyi olan bir müəllimdir. Valeh Əlixanovun haqqında bəhs etdiyimiz kitabı Naxçıvanda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən yüksək keyfiyyətlə nəşr edilmişdir. Metodik vəsait bədən tərbiyəsi müəllimi, idman təlimatçıları və məşqçilərə kömək məqsədilə yazılmışdır.

Metodik vəsait Naxçıvan Muxtar Respublikasında 1920-ci ildən başlayaraq 100 il boyunca bədən tərbiyəsi və idmanın inkişafı, Naxçıvan boks məktəbinin yetişdirdiyi idmançılar haqqında ayrı-ayrı məlumat, yerli və beynəlxalq yarışlardakı uğurları, fiziki hazırlıq, əmək, təlim və məşqçilik fəaliyyətlərinin xronoloji xarakteristikası əsasında şərh edilmişdir.

Yeni nəşrin əsas məziyyəti ondan ibarətdir ki, bu metodik vəsaiti nəşrə hazırlayarkən müəllif Naxçıvan Muxtar Respublikasının dövlət arxivi, Naxçıvanda idmanın inkişafına aid rus və Azərbaycan dillərində nəşr olunmuş kitablardan, elmi-praktik problem və məsələlər haqqında elmi əsərlərdən, dərsliklərdən və dərs vəsaitlərindən yaradıcılıqla istifadə etmiş, Naxçıvan boks məktəbinin idmançıları haqqında özlərindən və ya ailələrindən məlumatlar toplamış, veteran müəllimlərin keçmiş bədən tərbiyəsi və idman işçilərinin bu aktual mövzu ilə bağlı məlumat, fikir və düşüncələrindən faydalanmışdır. Müəllif tarixi faktları təkcə sadalamaqla kifayətlənmir, onları aydın, elmi dildə şərh edir. Əhəmiyyətlisi odur ki, o, kitabı yazarkən bir tərəfdən bu qəbildən olan vəsaitlərə verilən tələbləri, digər tərəfdən isə oxucunu, xüsusilə idmanı özünün həyat amalına çevirmək istəyən tələbə-gənci, onun yaşını, intellektual, mənəvi-psixoloji və fiziki imkanlarını nəzərə almışdır.

Müəllifin uzun illər ərzində müəllim-məşqçi kimi Naxçıvan boks məktəblərinin yetişdirdiyi idmançılar haqqında ayrı-ayrı zəruri məlumatların xronoloji xarakteristikasını özündə ehtiva edən bu vəsaitin digər məziyyəti isə onun bu sahədə çalışan şəxslər üçün stolüstü kitab kimi zəruri mənbə rolunu oynamasındadır.

Sonda Valeh Əlixanovun "Naxçıvan boks məktəbinin yetirmələri" adlı kitabının dəyərli elmi-metodik nəşr kimi bu sahədə olan boşluğu dolduracağına, oxucularının yeni və sistemli bilgilərə olan tələbatını ödəyəcəyinə inanırıq.

**Vəli ƏLİYEV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər noyabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 26 əcnəbi aşkarlanaraq qanunvericiliyin tələblərinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 668 müraciət edilib. Onlardan 370-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası Qanunvericiliyinin tələblərinə əsasən araşdırılıb, müvafiq qərarlar qəbul edilib.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 298 müraciət qeydə alınaraq icrası təmin olunub, həmin müraciətlərdən 96-sı elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzindədir

***Ötən ay ərzində gənc nəslin vətənpərvər ruhda formalaşması, intellektual biliyi və dünyagörüşünün artırılması, asudə vaxtının səmərəli təşkili, muxtar respublikanın turizm imkanlarının onlar arasında tanıdılması və təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilib. 10-17 noyabr – Tələbə-Gənclər Həftəsi çərçivəsində ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin iştirakı ilə Şahbuz rayonuna ekskursiya, film nümayişi, "Nə? Harada? Nə zaman?" intellektual oyunu, şən və hazırcavablar klubları arasında müsabiqə, peyntbol, badminton, stolüstü tennis və minifutbol üzrə "Tələbə kuboku" uğrunda muxtar respublika birincilikləri təşkil olunub.***



Gənclərə Vətənə sevgi, dövlətə sədaqət ruhunun aşılanması, turizm əhəmiyyətli məkanların tanıdılması və onlarda idmana maraq yaratmaq məqsədilə könüllü gənclərin Dövlət Bayrağı Muzeyinə, ali və orta ixtisas təhsili müəssisələrinin birinci kurs tələbələrinin isə Naxçıvan Atıcılıq Mərkəzinə ekskursiyası təşkil olunub. Gənc nəslin yaradıcılıq potensialının üzə çıxarılması, şəxsi inkişaf və karyera imkanlarının yaradılması istiqamətində "Bayraq mənliyimdir" rəsm müsabiqəsi, Şərur rayonunda "Maliyyə məktəbi", Naxçıvan şəhərində isə "Workshop" layihəsi (proqramlaşdırma) çərçivəsində təlimlər keçirilib. Gənc nəslin vətənpərvər ruhda böyüməsi, Azərbaycançılıq ideologiyasına, milli dövlətçilik prinsiplərinə sadiq vətəndaş kimi formalaşması məqsədilə gənclər Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birində zabit və əsgərlərlə görüşüb, onların xidməti şəraiti, həmçinin hərbi silah və texnikalarla tanış olublar.

Ölkə tarixində müstəsna xidmətləri olan şəxslərin, ərazi bütövlüyümüz uğrunda şücaət göstərən döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur!" adlı videoçarxların hazırlanması və sosial şəbəkələrdə yerləşdirilməsi prosesi davam etdirilib.

Hesabat dövrü ərzində bədən tərbiyəsi və idmanın inkişafı, bu sahədə kütləviliyin, yığma komandaların komplektləşdirilməsi, hakimlərin peşə hazırlığının təmin olunması, gənc nəslin sağlamlığının qorunması və asudə vaxtının səmərəli təşkili istiqamətində tədbirlər həyata keçirilib. Kəngərli rayonunun Xok kənd tam orta məktəbində güləş bölməsi yaradılıb, məşqlərə qoşulan uşaq və yeniyetmələrə idman geyim dəstləri və güləş trikoları hədiyyə edilib. Futbol üzrə Azərbaycan Region Liqasının Naxçıvan zonasındakı oyunlara start verilib, görüşlərdə ədaləti qoruyan hakimlər üçün Bakıdan dəvət olunan mütəxəssislərin iştirakı ilə seminar keçirilib. Türkiyə və Naxçıvan alpinistlərinin iştirakı ilə Haçadağa "Zəfər yürüşü", müharibə iştirakçıları arasında peyntbol, ümumtəhsil məktəblərinin komandaları arasında voleybol, gənclər arasında oxçuluq, tir atıcılığı, həmçinin uşaq və yeniyetmə kikboksçular arasında muxtar respublika birincilikləri təşkil olunub.

Ötən ay idmançılarımız ölkə və beynəlxalq miqyaslı yarışlarda öz qüvvəsini sınayıb, uğur qazanıblar. Naxçıvan Boks Federasiyasının yetirməsi Sərxan Əliyev Serbiyanın paytaxtı Belqradda boks üzrə dünya çempionatının bürünc medalına sahib olub. Həsənqulu Abdullayev klassik bodibildinq üzrə Azərbaycan çempionu və çempionatın mütləq qalibi olmaqla, Avropa birinciliyinə vəsiqə əldə edib. Karateçilərimiz Serbiyanın Zrenjanin və Türkiyənin İstanbul şəhərlərindəki dünya çempionatlarında 4 gümüş, 3 bürünc, Bakı şəhərində Azərbaycan Milli Karate Federasiyasının yeniyetmə və gənclər arasında 21-ci respublika birinciliyində 3 bürünc, eləcə də 8 Noyabr – Zəfər Gününə həsr edilmiş açıq Bakı turnirində 7 qızıl, 6 gümüş və 4 bürünc (Naxçıvan komandası medalların sayına və əyarına görə turniri ikinci sırada tamamlayıb) əldə ediblər. Beynəlxalq usta Talıb Babayev Türkiyənin Mərsin şəhərində keçirilən beynəlxalq şahmat turnirində 50 yaşdan yuxarı iştirakçılar arasında birinci olub. Sumqayıt şəhərində keçirilən VI Uşaq Paralimpiya İdman Oyunlarında isə təmsilçilərimiz 1 gümüş və 1 bürünc medal qazanıblar. Bundan əlavə, Xaçmaz şəhərində çağırışaqədər və çağırışyaşlı gənclər arasında "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatına zona mərhələsinin qalibi kimi qatılan Babək rayon komandası ikinci yeri tutub, əlavə olaraq təmsilçilərimizdən 2-si fərdi göstəricilərə görə mükafata layiq görülüb.

Muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar davam etdirilib, qrafikə uyğun olaraq budəfəki gəzintidə Atletika, Basketbol, Voleybol və Futbol federasiyalarının təmsilçiləri müvafiq olaraq Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi və Naxçıvan Biznes Mərkəzini ziyarət ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Futbol üzrə Azərbaycan Region Liqasının Naxçıvan zonasında üçüncü turun oyunlarına yekun vurulub.*

## Üçüncü turun oyunlarına yekun vurulub



Doğma arenada Babəkin eyniadlı komandasını qəbul edən "Araz-Naxçıvan" mövsümdə ardıcıl üçüncü qələbəsini qazanıb. Naxçıvan təmsilçisi qapısından bir top buraxsa da, sonda meydanı 8:1 hesablı qələbə ilə tərk edib. Uzunoba Təlim-Məşq İdman Kompleksində Şərurun "Arpaçay" komandasını qəbul edən Şahbuzun "Batabat" komandası bu turda da yenə qələbəyə həsrət qalıb. Belə ki, şərurlular şahbuzlu həmkarlarını 8 dəfə meydanın mərkəzinə "dəvət etməli olublar" – 2:8.

Ordubad şəhər stadionunda azarkeşlər maraqlı oyunun şahidi olublar. Yerli "Dübəndi" komandası Culfanın "Əlincə" komandasını qəbul edib. Gərgin keçən görüş culfalıların 4:2 hesablı qələbəsi ilə başa çatıb. Sədərək rayonunu təmsil edən eyniadlı komanda isə ardıcıl olaraq mövsümdə üçüncü məğlubiyyətlə üzləşib. Belə ki, "Sədərək" doğma arenada bu dəfə "Kəngərli" komandası qarşısında meydanı xalsız tərk edib – 0:7.

Turnir cədvəlinə 9 xalla "Araz-Naxçıvan" başçılıq edir. Eyni xala malik "Arpaçay" ikinci, 6 xalı olan "Kəngərli" və "Əlincə" isə üçüncü və dördüncü yerləri bölüşürlər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Məzuniyyət vaxtı üçün əməkhaqqının ödənilməsi qaydası necədir?*

***Cavab:*** Azərbaycan Respublikası Əmək Məcəlləsinə əsasən məzuniyyət vaxtı üçün ödənilən orta əməkhaqqı onun hansı iş ili üçün verilməsindən asılı olmayaraq, məzuniyyətin verildiyi aydan əvvəlki 12 təqvim ayının orta əməkhaqqına əsasən müəyyən edilir. 12 təqvim ayından az işləyib məzuniyyətə çıxan işçinin ortaaylıq əməkhaqqı onun faktik işlədiyi tam təqvim aylarına əsasən hesablanır. Məzuniyyət günlərinin əməkhaqqını müəyyən etməkdən ötrü məzuniyyətdən əvvəlki 12 təqvim ayının əməkhaqqının cəmlənmiş məbləğini 12-yə bölməklə ortaaylıq əməkhaqqının məbləği tapılır və alınan məbləği ayın təqvim günlərinin ortaillik miqdarına – 30,4-ə bölmək yolu ilə birgünlük əməkhaqqının məbləği müəyyən edilir. Bu qayda ilə müəyyən edilmiş birgünlük əməkhaqqının məbləği məzuniyyətin müddətinin təqvim günlərinin sayına vurulur.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Bildiriş

Naxçıvan Dövlət Universiteti 2021-2022-ci tədris ilinin payız imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil daxil olmaqla) payız imtahan sessiyası 5 yanvar 2022-ci il tarixdən başlayır və 15-20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

### İtmişdir

Səfərov Zakir Cəbrayıl oğluna məxsus olan avtomobilin dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

* * *

Muradov Bayram Murad oğlunun adına olan JN-735A inventar nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Erdem Ozanın adına olan pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1020